UOT 327

FİDAN QAFULOVA
Bakı Dövlət Universitetinin doktorantı, tyutor
fidan.qafulova@yahoo.com

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ MƏSULİYYƏT BÖLGÜSÜ

DOI: https://doi.org/10.36719/2708-065X/112/169-175

Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq məsuliyyət bölgüsü ekoloji problemlərin transsərhəd xarakter daşıması səbəbindən böyük əhəmiyyətə malikdir. Burada dövlətlər beynəlxalq hüquq normalarına əsaslanaraq çirklənmənin qarşısını almaq, təbii resurslardan davamlı istifadəni təmin etmək və transsərhəd ərazilərdə baş verən ətraf mühitə vurulan ziyana görə kompensasiya ödəmək öhdəliyi daşıyırlar. Beynəlxalq təşkilatlar, xüsusilə BMT və Aİ hüquqi və nəzarət mexanizmləri vasitəsilə bu məsuliyyətin icrasını dəstəkləyirlər. QHT-lərin və cəmiyyətin iştirakı isə beynəlxalq ekoloji öhdəliklərin daha effektiv yerinə yetirilməsinə imkan yaradır. Beləliklə, məsuliyyət bölgüsü qlobal təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasında əsas faktorlardan biridir.

Açar sözlər: Ətraf mühit, ekoloji problemlər, beynəlxalq məsuliyyət, beynəlxalq məhkəmə, kompensasiya.

Giriş. Qloballaşma dövründə ekoloji problemlər bütün dünyanı narahat edən prioritet məsələlərdən birinə çevrilmişdir. İqlim dəyişikliyi, atmosferin çirklənməsi, meşələrin məhv edilməsi, təbii ehtiyatların tükənməsi insan həyatına birbaşa təsir göstərir. Məlumdur ki, ətraf mühitin çirklənməsi yerli, regional və qlobal miqyasda baş verə bilər. Təbii və ekoloji proseslərin qlobal məsələləri nə milli nə də inzibati sərhədlərlə məhdudlaşmır. Yer kürəsinin bir yerində ətraf mühit çirklənməsi genişləndikcə regional ekoloji problemlərdən qlobal problemlərə çevrilir [1, s.210].

Atmosferin çirkələnməsi və ekoloji böhranların sərhəd tanımaması bu problemin çətinliyini daha da dərinləşdirir. Bütün bunların qarşısını almaq yalnız müəyyən bir dövlətin və ya hər hansısa təşkilatın deyil, bütövlükdə cəmiyyətin üzərinə düşən ortaq məsuliyyətdir. Bu səbəbdən ətraf mühitin mühafizəsində məsuliyyət bölgüsü xüsusi əhəmiyyət daşıyır. Məsuliyyət bölgüsü dedikdə burda dövlətlərin, beynəlxalq təşkilatların, ayrı-ayrı fərdlərin və ümumilikdə cəmiyyətin birgə fəaliyyətini özündə birləşdirməyi nəzərdə tutur. Əlbəttə qlobal ekoloji məsuliyyət beynəlxalq aləmin uzun illərdən bəri formalaşan mövcud suverenlik, diplomatiya, qüvvələr balansı kimi əsas institutları ilə müqayisədə nisbətən yeni və zəif bir institutdur. Lakin bununla belə onun əhəmiyyətinin günü gündən artması da inkar edilməzdir. BMT-nin 1972-ci ildə Stokholmda keçirilən Ətraf mühitə dair konfransı bu məsuliyyəti beynəlxalq miqyasda ortaya çıxaran ilk addım hesab oluna bilər [3, s.2].

Ümumi olaraq, ətraf mühitin qorunmasında həmçinin ətraf mühit ilə bağlı məsuliyyətin formalaşmasında beynəlxalq hüququn rolu böyükdür. Çünki müasir dünyada texnologiyanın davamlı inkişafını da nəzərə alaraq ətraf mühit problemlərinin günbəgün artması onun artıq qarşısıalınmaz fəlakətlərə gətirib çıxardığının hər ötən gün daha da artıq şahidi oluruq. Dövlətlərarası problemlərin, müharibələrin nəticəsində təkcə aclıq, səfalət, səhiyyə, təhsil kimi həyati əhəmiyyətli problemlərlə birlikdə əhalinin hətta içməli su ehtiyyatları üçün əlçatanlığını itirməsi hər hansısa bir və ya iki dövlətin daxili qərar və strategiyalarına əsasən həll edilməyəcək qədər fövqəlhadisə olmasının sübutudur ki, bu da mütləq beynəlxalq hüququn müdaxiləsinin vacibliyini özündə ehtiva edir.

Dövlət ətraf mühitin qorunması üçün uyğun qanunvericilik sistemi yaradaraq ekoloji siyasət formalaşdırır və onun icrasına nəzarət edir. Xüsusi olaraq yaşıllıqların artırılması bu sahədə müəyyən layihələrin təşkil edilməsi, qeyri-hökümət təşkilatlarının bu istiqamətdə fəaliyyətinə dövlət tərəfindən dəstək göstərilməsi, tullantıların idarə olunması, sənaye müəssisələrinin fəaliyyətinə ekoloji nəzarət, xüsusi ilə içməli su hövzələrinin qorunmasına xüsusi nəzarət, yaşıl enerji layihələrinin təşviqi dövlətin bu istiqamətdə əsas vəzifələrindən hesab olunur. Ekoloji postların qurulması nəqliyyat vasitələrinin havanı çirkləndirilməsinin qarşısını almaq üçün görülən tədbirlərdən biri kimi qiymətləndirilə bilər. Məsələn artıq bir çox ölkələr polietilen məhsulların istifadəsini azaltmaq məqsədi ilə iri market

və bazarlarda kağız torbaların istehlakına təşviq edərək plastik və polietilen məhsullardan imtina edirlər. Nəzərə alsaq ki, plastik və polietilen məhsulların parçalanaraq yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 ilə qədər vaxt keçməsi lazım gəlir. Buna baxmayaraq yarım əsrdən sonra da plastik məhlul torpağa qarışıb onu çirkləndirərək zərər verməyə davam etdiyini nəzərə alan bir çox inkişaf etmiş ölkələr plastik qablaşdırıcılardan istifadənin azaldılması istiqamətində müvafiq qanunvericilik bazası yaratmışdırlar. Avropa ölkələrinin artıq bir çoxunda əsas tədbir kimi plastik torbaların ödənişli olması və ya onlara ekoloji vergi tətbiqi kimi üsullardan istifadə edilir.

Azərbaycanda da 2019-cu il fevralın 7-də Prezident İlham Əliyev tərəfindən plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planının təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır. Tədbirlər Planı 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı, 2025-ci ildən sonrakı dövr üçün isə hədəf baxışını əhatə edir və ətraf mühitin mühafizəsinə dair genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutur [6].

Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə milli qanunvericiliyin əsasını 1999-cu ildə qəbul edilmiş "Ətraf mühitin mühafizəsi haqqında Qanun" təşkil edir. Qanun özündə əsasən aşağıdakı məsələləri əks elətdirir: Dövlətin, vətəndaşların, ictimai birliklərin və yerli özünüidarəetmə orqanlarının hüquq və vəzifələri; Təbii ehtiyatlardan istifadə; Monitorinq, standartlaşdırma və sertifikatlaşdırma; Ətraf mühitin mühafizəsi sahəsində iqtisadi tənzimləmə; Dövlət Ekoloji Ekspertizası (DEE); İqtisadi fəaliyyətlər üzrə ekoloji tələblər; Təhsil, elmi tədqiqatlar, statistika və informasiya; Fövqəladə ekoloji şərait və ekoloji fəlakət zonaları; Ətraf mühitin mühafizəsinə nəzarət; Ekoloji audit və onun həyata keçirilməsi; Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət; və Beynəlxalq əməkdaşlıq.

Ətraf mühitin mühafizəsinə məsuliyyət bölgüsünü obyektləri qismində dövlətləri, iqtisadi təşkilatları, trasnmilli korporasiyaları, iri biznes şirkətlərini və şəxsləri yəni ayrılıqda cəmiyyətin hər bir fərdini fərqləndirə bilərik. Dövlətlər həm öz qanunvericiliyinə əsasən həm də digər dövlətlərlə aralarında imzalanmış ətraf mühitlə bağlı hüquqi aktlara əsasən öz məsuliyyətlərini dərk edirlər. Burada iki əsas mərhələ mövcuddur: əvvəla çirklənməyə səbəb olan dövlət zərərin qarşısını almağa çalışır, əgər artıq zərər baş veribsə, həmin ziyanı aradan qaldırmağa və kompensasiya ödəməyə borcludur. Məsələn 1938-41-ci illərdə ABŞ və Kanada arasında baş vermiş Trail Smelter işini transsərhəd çirklənmələri üzrə ən aydın kompensasiya nümunəsi kimi buna misal göstərmək olar. 1920-1930-cu illərdə Kanadanın ərazisində yerləşən Trail şəhərindəki mis əridici zavod tərəfindən havaya kükürd dioksid (SO_2) qazları buraxılması nəticəsində bu qazlar sərhədi keçərək ABŞ-ın Vaşinqton ştatındakı ərazilərdə, xüsusilə kənd təsərrüfatı ərazilərinə və meşələrə ciddi ziyan vurmuşdur. ABŞ hökuməti fermerlərin şikayətini əsas gətirərək Kanadaya qarşı məsələni qaldırmasından sonra hər iki dövlət bu mübahisəni beynəlxalq arbitraj tribunalına çıxarmağa razılaşmışdırlar. Beynəlxalq məhkəmə məsələ ilə bağlı 1938-ci və 1941-ci illərdə iki qərar vermişdir. Belə ki, məhkəmə müəyyən etdi ki, zavodun tullantıları ABŞ ərazisində kənd təsərrüfatına və mülkiyyətə ciddi zərər vurub buna görə də, Kanada hökuməti ABŞ-ın zərərçəkmiş fermerlərinə kompensasiya ödəməli oldu. Məhkəmə ətraf mühit hüququnda əsas prinsip kimi "heç bir dövlətə öz ərazisindən digər dövlətin ərazisinə ciddi ziyan vura biləcək şəkildə fəaliyyətinə icazə verməməlidir" fikrini əsas götürmüşdür ki, bu prinsip sonradan beynəlxalq ekoloji hüququn əsas qaydalarından biri olmuşdur [4, s.39]. Ödənilən kompensasiya ilkin qiymətləndirilmədə (1928-1931-ci illərdə vurulan zərərə görə) 350000 ABŞ dolları təşkil edirdi. 1938-ci ildə verilən qərara əsasən isə (1932-1937-ci illərdə vurulan zərərə görə) 78000 ABŞ dolları ödənilməsi haqqında razılıq əldə edildi [4, s.16]. Bu məhkəmə işi beynəlxalq hüquqda transsərhəd çirklənməsinə görə məsuliyyətin əsas presedenti hesab olunur. Trail Smelter işi ilk dəfə olaraq transsərhəd ətraf mühit çirklənməsinə görə dövlətin məsuliyyətini təsdiq etdi.

Ətraf mühitin mühafizəsi sahəsində transmilli korporasiyaların beynəlxalq məsuliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Çünki iqtisadi fəaliyyət bir tərəfdən dövlətlərin inkişafına təkan versə də, digər tərəfdən isə ekoloji problemlərin yaranmasına gətirib çıxarır. Burada isə şirkətlər istehsal prosesində daha çox ekoloji standartlara riayət etməli, ekoloji təmiz texnologiyalara üstünlük verməli və sosial layihələr vasitəsilə ətraf mühitin qorunmasına dəstək olmağa çalışmalıdırlar.

Bunları nəzərə alaraq ətraf mühitin qorunması sahəsində subyektlərin məsuliyyətini xüsusi vurğulayan iki əsas hüquqi-etik prinsipi qeyd etmək lazımdır:

1. "Dayanıqlı inkişaf prinsipi" - iqtisadi təşkilatlar yalnız mənfəət əldə etməyi deyil, həm də gələcək nəsillərin ekoloji təhlükəsizliyini nəzərə almaq öhdəliyini öz üzərlərinə götürməlidir. Burada "Korporativ sosial məsuliyyət" (Corporative social responsibility) və "yaşıl iqtisadiyyat" prinsiplərini xüsusi qeyd etmək lazımdır.

2."Çirkləndirici Ödəyir Prinsipi"- ətraf mühit hüququnda çirklənməyə səbəb olan fərdlərin, müəssisə və təşkilatların ətraf mühitə və cəmiyyətə vurduqları ziyanın qarşısının alınması, ona nəzarət edilməsi və bərpası ilə bağlı xərcləri ödəməli olduğunu bildirir və onların ətraf mühitə vurduqları ziyana görə beynəlxalq və milli qanunvericilik qarşısında məsuliyyət daşımasını özündə əks etdirir və çirklənməni azaldaraq ondan yayınmağa sövq edir.

Məsuliyyət bölgüsü həm ümumi həm də fərqləndirilmiş (Common but Differentiated Responsibility) xarakter daşıya bilir. Belə ki, ətraf mühitin mühafizəsi üçün ümumi olaraq bütün dövlətlərin iştirakı şərtdir, fərqləndirilmiş cəhət isə burda dövlətlərin iqtisadi inkişaf səviyyəsinə görə iştirak və təsir gücündən söhbət gedir. Belə ki əslində inkişaf etmiş dövlətlər daha çox iqtisadi artımla öz inkişaflarına təsir göstərsələr də eləcə də daha çox ekoloji problemlərin artmasına səbəb olurlar. Nəticə olaraq, inkişaf etmiş ölkələr tarixən daha çox çirkləndirməyə səbəb olduqları üçün daha böyük öhdəlik daşıması tələb olunur. Bundan əlavə inkişaf etmiş ölkələr öz siyasi iradələrinə uyğun olaraq digər dövlətlərlə siyasi toqquşmalara səbəb olduqda və ya hərbi addımlar atdıqda qonşu dövlətlər qarşısında da transsərhəd çirkləndirmələrinə uyğun məsuliyyət daşımalıdır. Transsərhəd çirkləndirilmə yəni bir dövlətin ərazisində yaranan çirklənmənin başqa dövlətin ərazisinə keçməsi beynəlxalq ətraf mühit hüququnda çox vacib anlayışdır. Əsas xüsusiyyət kimi məkanı aşmasını qeyd edə bilərik ki, çirklənmə bir dövlətin sərhədlərini keçir və başqa dövlətlərin ərazisinə, əhalisinə və təbii resurslarına təsir göstərir. Həmçinin çirklənmə predmeti də müxtəlif ola bilər: hava çirklənməsi - məsələn, sənaye müəssisələrinin tullantıları küləklə qonşu ölkələrə keçə bilər; su çirklənməsi - çayların, göllərin və ya dənizlərin çirklənməsi sərhədləri aşaraq digər dövlətlərə ekoloji təsiri; torpaq və meşə yanğınları - tüstü və zərərli maddələr digər ölkələrin atmosferini çirkləndirməsi; radioaktiv çirklənmə - nüvə qəzası zamanı sərhədləri aşan təsirlər; Məsələn, 1986-cı ildə baş verən Çernobıl hadisəsi nəticəsində radioaktiv maddələr yalnız Ukraynada yox, bütün Avropada ciddi ekoloji böhrana səbəb oldu. Düzdür buna görə keçmiş SSRİ dövlətlərə birbaşa kompensasiya ödəmədi, lakin sonrakı dövrdə Beynəlxalq Atom Enerjisi Agentliyi və digər beynəlxalq mexanizmlər vasitəsilə zərərçəkən ölkələrə yardımlar göstərildi. BMT çərçivəsində 1991-ci ildə "Chernobyl Trust Fund" yaradılaraq zərərçəkən bölgələrdə sosial iqtisadi problemlərin həllində dəstək üçün vəsait toplandı. Belorusiya, Ukrayna və Rusiyada müxtəlif xəstəliklərin artması səbəbindən digər ölkələrdən dərman, tibbi avadanlıq və həkim briqaları göndərilərək humanitar yardım göstərildi. Zərərçəkmiş regionlarda yaşayan milyonlarla insan başqa ərazilərə köçürüldü, onlara dövlət tərəfindən mənzil, sosial müavinət və təqaüd verildi. Çernobl hadisəsindən sonra dəymiş zərərin qarşılığında kompensasiya ödənilməsi həyata keçirilməsə də, dövlətlər tərəfindən humanitar, sosial-iqtisadi, texniki yardımlar göstərilmişdir. Bu hadisə beynəlxalq miqyasda nüvə təhlükəsizliyi sahəsində əməkdaşlığı da inkişaf etdirmişdir.

Ekoloji problemlərin sərhəd tanımaması onların həllində təkcə milli dövlətlərin deyil, həm də beynəlxalq təşkilatların məsuliyyətini tələb edir. Beynəlxalq təşkilatlar dövlətlərin fəaliyyətini əlaqələndirir, beynəlxalq hüquqi normalarını hazırlayaraq onların icrasına nəzarət edirlər. Beynəlxalq təşkilatların ətraf mühitin mühafizəsi sahəsində məsuliyyəti çoxşaxəlidir: onlar hüquqi sənədlər hazırlayır, dövlətlərin fəaliyyətini əlaqələndirərək onlara maliyyə dəstəyi göstərir və ekoloji monitorinq aparırlar. Əgər dövlətlərin öhdəliyi milli səviyyədə icra edilməsi ilə məhdudlaşırsa, beynəlxalq təşkilatların məsuliyyəti qlobal miqyasda ədalətli və davamlı ekoloji idarəetmənin təmin olunmasını da özündə ehtiva edir. Ətraf mühitlə bağlı əsas beynəlxalq prinsiplər isə 1972-ci il Stokholm Bəyannaməsi, 1992-ci il Rio Bəyannaməsi və 2015-ci il Paris İqlim Sazişində təsbit olunmuşdur.

Cədvəl 1.

Beynəlxalq təşkilatların ətraf mühit problemlərinin həllində rolu

Təşkilat	Fəaliyyət istiqaməti
BMT Baş Assambleyası	Qlobal ekoloji məsələlərin siyasi gündəliyini müəyyənləşdirilməsi; Dövlətlər üçün bəyannamələr hazırlanması;
BMT-nin Ətraf Mühit Proqramı (UNEP)	Dövlətlər arasında ekoloji siyasətin əlaqələndirilməsi; Qlobal hesabatlar hazırlanması; Texniki yardım;
İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC)	Dövlətlərin iqlim dəyişikliyi ilə mübarizə üzrə öhdəliklərinin tənzimlənməsi; Paris Sazişinin icrasına nəzarət;
UNESCO	Təbii irs ərazilərinin qorunması; Ekoloji təhsilin təşviqi;
Avropa İttifaqı (Aİ)	"Yaşıl Saziş" strategiyası Karbon neytrallığa keçid; Bərpa olunan enerji layihələri; Üzv dövlətlərin ekoloji siyasətini koordinasiyası;
Dünya Səhiyyə Təşkilatı (ÜST)	Ətraf mühit və sağlamlıq arasındakı əlaqələri araşdırılması; Hava çirkliliyi, iqlim dəyişikliyi və sağlamlıq riskləri üzrə tövsiyələr;
İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı (OECD)	Davamlı inkişaf göstəriciləri hazırlanması; Üzv ölkələrin ekoloji siyasətinin qiymətləndirilməsi;
Beynəlxal/q Enerji Agentliyi (IEA)	Enerji səmərəliliyi; Təmiz enerji texnologiyaları və karbon emissiyalarının azaldılması;

Cədvəl Beynəlxalq təşkilatların rəsmi sənədləri və fəaliyyəti haqqında internet resurslarından götürülmüş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Avropa İttifaqı isə ətraf mühitin mühafizəsi sahəsində ən optimal həll yollarının irəli sürən regional təşkilat kimi dəyərləndirə bilərik. Belə ki, Aİ-nin "Yaşıl Saziş" (European Green Deal) strategiyası iqlim neytrallığına nail olmaq məqsədini qoyur. Bu saziş 2050-ci ilə kimi Avropa İttifaqının iqlimə neytral bölgəyə çevirməyi hədəfləyir. Burada təşkilat üzv dövlətlərə hüquqi öhdəliklər yükləyir və məsuliyyət bölgüsünü təmin edir. "İqlimə neytral" dedikdə, yəni həmin ərazidə atmosferə buraxılan istixana qazlarının miqdarı ilə, bu qazların atmosferdən çıxarılması və ya qarşısının alınması tədbirləri nəticəsində onun sıfır səviyyəsinə çatması başa düşülür. Yəni, buraxılan istixana qazları əsasən karbon qazı ya tamamilə qarşısı alınır, ya da başqa yollarla xüsusi ilə, meşələrin salınması, yaşıllıqların artırılması, karbon tutma texnologiyaları ilə və s. kompensasiya olunur. Məsələn, bir şəhər avtomobillərdən, sənayedən və enerji istehsalından karbon qazı buraxırsa, ancaq eyni zamanda bu qazları udan meşələr salınarsa və təmiz enerji mənbələrinə keçirilərsə, bu şəhər "iqlimə neytral" ola bilər. Məqsəd iqlim dəyişikliyinin qarşısını alaraq planetin istiləşməsini məhdudlaşdırmaqdır.

Dünya Bankı, Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı kimi maliyyə təşkilatları da ekoloji layihələrin maliyyələşdirilməsində mühüm rol oynayır. Onlar yalnız maliyyə ayırmaqla deyil həmçinin ekoloji standartlara riayət olunmasına da nəzarət edirlər. Məsələn, Dünya Bankının "Ətraf mühit və sosial çərçivə" (Environmental and Social Framework) sənədində ekoloji zərərin azaldılmasını əsas şərtlərdən biri kimi irəli sürülür.

Atmosferin çirklənməsi, iqlim dəyişikliyi, təbii resursların sürətli tükənməsi təkcə dövlətlərin və beynəlxalq təşkilatların deyil, həm də cəmiyyətin və hər bir fərdinin məsuliyyətini tələb edən

problemdir. Ətraf mühitin mühafizəsi yalnız dövlət səviyyəsində qəbul olunan qanunlarla deyil, ictimai şüurun yüksəldilməsi, vətəndaş fəallığının gücləndirilməsi və gündəlik davranışların dəyişdirilməsi ilə mümkün ola bilər. Ətraf mühitin qorunmasında ekoloji mədəniyyətin formalaşdırılması əsas şərtlərdən biridir. İnsanlar təbiətlə harmoniyada yaşamağın yollarını bilməli, təbiətə yalnız istifadə obyekti kimi deyil, gələcək nəsillərə ötürüləcək dəyər kimi yanaşmalıdırlar. Bu məqsədlə ekoloji təhsil məktəbdən başlayaraq bütün təhsil pillələrində, eyni zamanda ictimai maarifləndirmə proqramları vasitəsilə həyata keçirilməlidir. Ekoloji təhsil təkcə nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, praktik fəaliyyətlərlə məsələn, ağacəkmə aksiyaları, tullantıların çeşidlənməsi, enerji və suya qənaət yönümlü layihələrlə müşayiət olunmalıdır. Belə tədbirlər insanların ekoloji şüurunu artırmaqla yanaşı, məsuliyyətli davranış vərdişlərinin formalaşmasına da xidmət edir. Ətraf mühitin qorunmasında hər bir fərdin gündəlik davranışları böyük əhəmiyyət kəsb edir. Kiçik görünən sadə addımlar məsələn, tullantıların çeşidlənməsi, plastikdən mümkün qədər az istifadə, suya və enerjiyə qənaət, təkrar emal proseslərinə qoşulmaq və s. bütün bunlar ümumilikdə böyük nəticələrə səbəb ola bilər. Burada "çirkləndirən ödəyir" prinsipinin yalnız dövlət və şirkətlərə deyil, hər bir insana aid olması vacib şərtlərdəndir. Əgər hər kəs istehlak davranışına diqqətlə yanaşsa, həm resurs israfı azalacaq, həm də ekoloji tarazlıq qorunmuş olacaqdır. Fərdi məsuliyyət həm də başqaları üçün nümunə rolu oynayaraq cəmiyyətin ümumi ekoloji mədəniyyətinin güclənməsinə təsir göstərir.

Beləliklə, ətraf mühitin mühafizəsi yalnız dövlətlərin öhdəliyi deyil, bütün cəmiyyətin və hər bir fərdin vəzifəsi hesab olunmalıdır. Ekoloji mədəniyyət və təhsilin gücləndirilməsi, ictimai təşkilatların fəal fəaliyyəti və fərdi davranışların dəyişdirilməsi birlikdə davamlı inkişafın təmin olunmasına, gələcək nəsillərə sağlam və təhlükəsiz mühitin ötürülməsinə zəmin yaradır. Ətraf mühitin qorunmasında məsuliyyət bölgüsü yalnız qlobal səviyyədə deyil, gündəlik həyatda hər bir insanın atdığı ən kiçik addımlardan başladığını qeyd etmək lazımdır.

Ətraf mühitin mühafizəsidə ictimai təşkilatlar və qeyri-hökumət təşkilatlarının rolunu da xüsusi qeyd etmək lazımdır. Greenpeace, WWF (World Wide Fund for Nature), Friends of the Earth kimi beynəlxalq qeyri-hökumət təşkilatlarını qeyd edə bilərik. 1971-ci ildə Amsterdamda təsis edilən Greenpeace təşkilatı dünyada ətraf mühitin qorunması ilə məşğul olan ən məşhur və ən aktiv QHT-lərdən biri hesab olunur. Onlar xüsusilə, iqlim dəyişikliyi ilə mübarizə, meşələrin və okeanların qorunması, nüvə silahlarına və nüvə enerjisinə qarşı mübarizə, plastik tullantıların azaldılması sahələrində fəaliyyət göstərirlər. Greenpeace qeyri-zorakı, lakin cəsarətli etiraz aksiyaları ilə tanınır. Məsələn, sənaye obyektlərinin qarşısında canlı etirazlar, gəmilərlə neft buruqlarına yaxınlaşmaq və s. Bir digər qeyri-hökümət təşkilatı isə 1961-ci ildə İsveçdə yaradılan, simvolu panda ilə (simvolik olaraq nəsli tükənməkdə olan heyvanları təmsil edir) tanınan WWF da dünyanın ən iri və nüfuzlu təbiəti qoruma təşkilatlarından biridir. Onların əsas hədəfi təbiətin qorunması, vəhşi heyvanların nəslinin saxlanması, su və torpaq resurslarının davamlı istifadəsi, iqlim dəyişikliyi ilə mübarizədir ki, bunu daha çox elmi tədqiqatlar, hökumətlərlə əməkdaşlıq, ictimai maarifləndirmə və layihələrin maliyyələşdirilməsi vasitəsilə həyata keçirirlər. Belə QHT-lər həm dövlət siyasətinə dəstək verir, həm də onun icrasına ictimai nəzarəti təmin edirlər. QHT-lər ekoloji problemləri ictimaiyyətə çatdırmaq, maarifləndirmə kampaniyaları aparmaq, eyni zamanda ekoloji qanunvericiliyin düzgün icrasına nəzarət etmək kimi mühüm funksiyaları yerinə yetirirlər. Bundan əlavə, belə təşkilatlar beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif layihələr həyata keçirərək yaşıl enerji, tullantıların azaldılması və təkrar emal kimi istiqamətlərdə cəmiyyətin fəallığını artırır və ekoloji problemlərin həllində vətəndaşların birbaşa iştirakını təmin edirlər.

Cədvəl 2.

Məsuliyyətli aktorlar	**İcraçılar**	**Məsuliyyətin növü**
Dövlətlər	BMT-yə üzv hər bir dövlət, Xüsusi ilə inkişaf etmiş ölkələr: ABŞ, Aİ ölkələri, Çin, Koreya və s.	Ətraf mühitlə bağlı qanunvericilik sisteminin formalaşdırılması;

Beynəlxalq təşkilatlar	BMT, Aİ, UNEP,Unesco, IEA və s.	Dövlətlərin fəaliyyətinin əlaqələndirilməsi; Beynəlxalq hüquq normalarının icrasına nəzarət
QHT-lər	Greenpeace, WWF, Friends of the Earth və s.	Layihələrin maliyyələşdirilməsi; İctimai maarifləndirmə; Elmi tədqiqatlar; Hökümətlərlə əməkdaşlıq;
Transmilli korporasiyalar	Unilever, İKEA GROUP, Danone, Henkel və s.	Ekoloji standartlara riayət; Ekoloji təmiz texnologiyalara üstünlük verilməsi; Bərpa olunan enerjidən istifadə və s.
Şəxslər	Cəmiyyətin hər bir fərdi	İctimai şüurun formalaşdırılması; Tullantıların çeşidlənməsi; Suya və enerjiyə qənaət; Ağacəkmə aksiyaları; Təbiətin qorunması;

Cədvəl müəllif tərəfindən hazırlanmışdır.

Nəticə. Əgər dövlətlər, transmilli korporasiyalar, iri biznes şirkətləri və fərdlər arasında ətraf mühitin qorunması üçün birgə əməkdaşlıq səyləri olmazsa qlobal ekoloji sabitliyin əldə olunması da bir o qədər mümkün olmayacaqdır. Ətraf mühitin mühafizəsi sahəsində məsuliyyət bölgüsü bütün tərəflərin - dövlətin, vətəndaşların və beynəlxalq ictimaiyyətin üzərinə düşür ki, beləliklə yalnız əməkdaşlıq və ədalətli məsuliyyət bölgüsü nəticəsində ekoloji təhlükəsizlik təmin oluna və gələcək nəsillərə sağlam bir təbiət miras qoyula bilər.

ƏDƏBİYYAT

1. Telman Xəlilov, "Ekologiya və ətraf mühiti mühafizənin əsasları", Bakı, "MBM-R", 2009, 231 s.
2. Telman Xəlilov, Maya Zeynalova "Qlobal ekoloji problemlər", Bakı, 2014, 212 s.
3. Robert Folkner, "Global Enviromental responsibility in international Society", Cambridge Univercity Press Cambridge, 2020, 27 s.
4. Rebecca M.Bratspies, Russel A.Miller "Transboundry harm in International law", Cambridge Univercity Press, 2006, 373 s.
5. Enviromental Protection Agency, Roles and responsibilities. - https://www.epa.ie/who-we-are/roles--responsibilities/ [27.01.2026].
6. AZƏRTAC, Plastik tullantılar və onların ətraf mühitə təsiri. - https://azertag.az/xeber/plastik_tullantilar_ve_onlarin_etraf_muhite_menfi_tesiri-1253762 [27.01.2026].
7. European Council, European Green Deal. - https://www.consilium.europa.eu/en/policies/european-green-deal/ [27.01.2026].

ФИДАН КАФУЛОВА
Докторант Бакинского Государственного Университета, тютор

РАСПРЕДЕЛЕНИЕ ОТВЕТСТВЕННОСТИ В СФЕРЕ ОХРАНЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

Распределение международной ответственности в области охраны окружающей среды приобретает особую значимость вследствие трансграничного характера экологических проблем. Государства, руководствуясь нормами и принципами международного права, несут обязательства по предотвращению загрязнения, обеспечению рационального и устойчивого ис-

пользования природных ресурсов, а также по возмещению ущерба, причинённого окружающей среде на трансграничных территориях. В данном процессе международные организации, прежде всего ООН и ЕС, играют важную роль посредством правовых и институциональных механизмов контроля и поддержки. Участие НПО и институтов гражданского общества способствует повышению прозрачности и эффективности реализации международных экологических обязательств. Таким образом, распределение ответственности рассматривается как один из ключевых факторов обеспечения глобальной экологической безопасности и устойчивого развития.

Ключевые слова: Окружающая среда, экологические проблемы, международная ответственность, международный суд, компенсация.

FIDAN GAFULOVA
PhD student, tutor, Baku State University

DIVISION OF RESPONSIBILITY IN ENVIRONMENTAL PROTECTION

The distribution of international responsibility in the sphere of environmental protection is of great importance due to the transboundary nature of environmental problems. In this regard, states, on the basis of international legal norms, are obliged to prevent pollution, ensure the sustainable use of natural resources, and provide compensation for environmental damage caused in transboundary areas. International organizations, particularly the UN and the EU, support the implementation of these responsibilities through legal and monitoring mechanisms. The participation of NGOs and society enables the more effective fulfillment of international environmental obligations. Thus, the distribution of responsibility is one of the key factors in ensuring global security and sustainable development.

Keywords: Environment, ecological problems, international responsibility, international court, compensation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Afət Güləliyeva, s.e.d. Adil Mirabdullayev.